<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>HIST 423, Müasir Dünya Tarixi, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya departamenti</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/26-cı tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim</td><td>Dr. Söhrab Mustafayev</td></tr>
<tr><td>E-mail:</td><td>smustafayev@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td>051-540-56-65</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Nərimanov kampusu/ 402-ci otaq</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və<br>əlavə ədəbiyyat</td><td colspan="2">1. Qasımlı M.C Avropa və Amerika ölkələrinin müasir tarixi (1918 - 1945). Bakı, 2003<br>2. Kərimzadə P.Asiya və Afrika ölkələrinin müasir tarixi (1918 -1945).Bakı, 2008, 248 s.<br>Əlavə:<br>3. Erik Jan Zürcher, Modernleşen Türkiye'nin Tarihi, Çeviri Yasemin Saner, İletişim, 2000<br>4. Siyasi Tarih-2.Cilt (1918-1994), Oral Sander, Yayınevi: İmge Kitabevi, 1996.<br>5. İsmayılov R., Axundova N., Bağırova A. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (Cənub – Qərbi Asiya və Şimali Afrika). 1945-2001. I hissə. Bakı 2004<br>6. İsmayılov R., Axundova N., Bağırova A. Asiya və Afrika ölkələrinin çağdaş tarixi (Uzaq, Cənub – Şərqi, Cənubi və Mərkəzi Asiya ölkələri). 1945-2001. II hissə. Bakı 2004</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">“Müasir dünya tarixi-1” məfhumu ənənəvi olaraq həmişə ümumdünya tarixində yeni tarix dönəmindən sonra gələn mərhələ kimi anlaşılmışdır. Müasir dünya tarixi fənni Birinci dünya müharibəsi öncəsində başda Avropa olmaq üzrə, dünyanın siyasi, iqtisadi və hərbi vəziyyətindən başlayaraq, İkinci dünya müharibəsinin sonuna qədər olan dövrü əhatə edir. Fərqli coğrafiyalarda baş verən hadisələrin 25 il kimi qısa bir müddət ərzində iki böyük dünya müharibəsinə səbəb olmasının arxa planını və bu müharibələrin dünyanın gedişatına təsirlərini təhlil və təsvir edir. 1914-cü ildən 1945-ci ilə qədər davam edən bu 30 illik dövrün günümüz dünyasının siyasi, sosial, iqtisadi və s. vəziyyətində oynadığı rol fənnin əsas istiqamətidir. Dünyanın yeni bir ümumi</td></tr>
</table>

<table>
<tr><td></td><td colspan="3">müharibəyə məcbur qalmasının qarşısının alınması nöqtəsində görülən işlər və ikiqütblü dünyada baş vermiş yeni müharibələr də bu fənnin əhatəsindədir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">• Birinci və İkinci dünya müharibələrinin səbəb və nəticələrini təhlil etmək<br>• Müharibələr sonrası yeni dünya nizamının dinamiklərini anlamaq<br>• İkiqütblü dünyadakı siyasi gedişləri dərindən öyrənmək<br>• Soyuq müharibə dövrünü şərtləndirən amilləri analiz etmək<br>• Koreya müharibəsinə gedən prosesi təhlil etmək<br>• Ötən əsrin qlobal məsələlərinin günümüzə təsirlərini dərk etmək<br>• Baş vermiş hadisələrin ölkəmizə və coğrafiyamıza təsirini ətraflı öyrənmək</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr aşağıdakı peşə kompetensiyalarına yiyələnəcək:<br>• Tarixi prosesləri təhlil etmək, onun həlli yolunu tapmaq<br>• Diskussiya və təqdimat zamanı fəal dinləmə mədəniyyətini formalaşdırmaq bacarığına<br>• Dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqları nümayiş etdirmək bacarığına<br>• Dövrün sosial-iqtisadi və siyasi proseslərin ümumi cəhətlərini təhlil etmək bacarığına<br>• Öyrənilmiş materialı təhlil etməyi<br>• Tövsiyyə olunmuş ədəbiyyatdan istifadə etmək bacarığına<br>• Tarixi hadisələrin analizi və müqayisə etmək bacarığına<br>• Tarixi hadisələrə tənqidi və obyektiv yanaşma bacarığına<br>• Praktik bacarıqların, idarəçilik, təşkilati, informasiya-analitik və digər məsələləri həll etmək bacarığına və s.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Yoxlama (Quiz) I</td><td>16.03.2026</td><td>5</td></tr>
<tr><td>Yoxlama (Quiz) II</td><td>11.05.2026</td><td>5</td></tr>
<tr><td>Prezentasiya</td><td>25.05.2026</td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr ərzində</td><td>5</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr ərzində</td><td>5</td></tr>
<tr><td>Aralıq</td><td>Aprel</td><td>30</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **imtahanı** | | |
| | **Final imtahanı** | **İyun** | 40 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Prezentasiya işinə qaydalar**<br>Semestr ərzində hər tələbə bir dəfə təqdimat etməlidir. Fənnin mövzusuna uyğun olaraq hazırlanan prezentasiyalar sinifdə təqdim edilir. Power Point-də hazırlanması məqsədəuyğundur. Tələbələr araşdırma apararaq təqdimatlarını hazırlamalıdır. Süni intelligent proqramları ilə hazırlanan təqdimatlar 0 (sıfır) kimi qiymətləndiriləcək. Bundan başqa Wikipedia kimi qeyri-akademik saytlardan alınan məlumatlar qəbul edilməyəcək. Hər həftə ən az iki tələbə təqdimat etməlidir. Qrupun sayından asılı olaraq iki və ya üç tələbə də təqdimat edə bilər. Prezentasiya müddəti 20 dəqiqədir.<br>**Yoxlama işi (Quiz)**<br>Semestr ərzində iki quiz (Aralıq imtahanından və final imtahanından əvvəl) keçirilir. Hər quiz 5 bal üzərindən qiymətləndirilir. Ən az iki həftə əvvəl tələbələrə quizin tarixi və mövzuları haqqında məlumat verilir. Quiz müddəti 30 dəqiqədir. Müəllimə və dekanlığa öncədən məlumat verilən səbəblərdən quizdə iştirak edə bilməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br><br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr final imtahanına buraxılmır. Fənnin semestr ərzində otuz dənə 90 dəqiqədən ibarət olduğu nəzərə alınanda, tələbə 8-ci qayıbda artıq fənndən kəsilmiş sayılır. Onu da qeyd edim ki, 10 dəqiqədən çox gecikən tələbələr dərsə buraxılmır.<br>**Dərsə gecikmələr və ya digər dərs pozuntuları**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayıb yazılır. Lakin tələbə dərsə bura-xılır. Dərsə gecikmə halları sıxlıq təşkil edərsə dekanlığa məlumat verilir. Dərs za-manı çox zəruri olmadıqca sinif otağından çıxmaq qəti qadağandır. Belə halların tez-tez baş verməsi yol verilməzdir. Dərsdə mobil telefonlardan ya da digər elektronik cihazlardan istifadə etmək qəti qadağandır. Bundan əlavə dərs zamanı başqa dərslərlə bağlı materiallardan istifadə etmək olmaz.<br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun imtahan mövzuları tələbələrə imtahandan öncə bildirilir və imtahana aid | | |

| | |
|---|---|
| | dərs materialı tələbələrlə bölüşülür. Sual tipləri və sual sayıları haqda da tələbələrə məlumat verilir. Aralıq imtahanında düşən suallar yekun imtahanda təkrarlanmır. İmtahanda hər qrup üçün ən az iki ayrı variant hazırlanır. Variantlar arasındakı balans, o cümlədən sualların çetinliyi məsələsinə diqqət göstərilir. Aralıq imtahanı 30, final imtahanı 40 baldır. Yekun imtahandan əvvəl bütün tələbələr ümumi balları ilə bağlı məlumatlandırılır.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrar götürə bilər. 57, 58, 59 balla kəsilən tələbələr tamamlama imtahanına müraciət edə bilərlər. Bundan başqa hansısa bir səbəbdəb imtahana girə bilməyən tələbələr isə cərimə imtahanına girə bilərlər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr aparmaq qadağandır. Dərsdə mobil telefonlardan və digər elektronik cihazlardan istifadə etmək qəti şəkildə qadağandır. Bundan başqa, digər fənnlərə aid dərs materiallarının istifadə edilməsi ya da dərsə aid olmayan işlərlə məşğul olunması qəti surətdə qadağandır. Xəbərdalıqlara baxmayaraq bu qaydanı pozan tələbələr müxtəlif cəzalarla üzləşə bilər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| **1.** | 16.02.2026 | • Paris sülh konfransı və Versal sülh müqaviləsi<br>• Sen-Jermen, Trianon, Neyi və Sevr sülh müqavilələri<br>• Millətlər Cəmiyyətinin yaradılması və onun fəaliyyəti<br>• Birinci dünya müharibəsindən sonra təzminat problemi Vaşinqton konfransı və onun qərarları | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2003-I bölmə, s. 6-40. |
| **2.** | 23.02.2026 | • Birinci dünya müharibəsindən sonra İngiltərənin iqtisadi və daxili- siyasi vəziyyəti<br>• İngiltərədə L. Corc hökumətinin daxili və xarici siyasəti<br>• İngiltərədə Birinci leyborist hökumətinin daxili və xarici siyasəti<br>• İngiltərə dünya iqtisadi böhranı illərində | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2003- III bölmə, s. 76-112. |

| | | | |
|---|---|---|---|
| | | • İkinci dünya müharibəsi ərəfəsində İngiltərənin xarici siyasəti | |
| **3.** | 02.03.2026 | • Almaniyada noyabr inqilabı və onun nəticələri<br>• Veymar Respublikasının qurulması və onun konstitusiyası<br>• 1919- 1923- cü illərdə Almaniyanın sosial- iqtisadi və daxili- siyasi vəziyyəti<br>• 1919- 1923- cü illərdə Almaniyanın xarici siyasəti<br>• Rur böhranı. Almaniyanın daxili- siyasi və beynəlxalq vəziyyətinə təsiri<br>• Almaniya dünya iqtisadi böhranı illərində | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2003-II bölmə, s. 40-76. |
| **4.** | 09.03.2026 | • Birinci dünya müharibəsindən sonra Fransanın sosial-iqtisadi və siyasi vəziyyəti<br>• Fransada Milli blok hökumətinin daxili və xarici siyasəti (1919- 1923)<br>• Fransa dünya iqtisadi böhranı illərində<br>• Fransada faşizm və 1934- cü il hadisələri<br>• Fransada Xalq Cəbhəsinin daxili-xarici siyasəti | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2003-IV bölmə, s. 112-141. |
| **5.** | 16.03.2026 | • ABŞ üçün Birinci dünya müharibəsinin nəticələri, onun beynəlxalq maliyyə statusunun dəyişilməsi<br>• ABŞ-da K.Kulic hökumətinin daxili və xarici siyasəti | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2003-V bölmə, s. 141-171. |
| **6.** | 23.03.2026 | • İtaliyada faşistlərin hakimiyyətə gəlməsi<br>• İtaliyan faşizminin xüsusiyyətləri<br>• İtaliyada totalitar faşist diktaturasının qurulması<br>• Lateran sazişləri | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2003-V bölmə, s. 171-192. |
| **7.** | 30.03.2026 | • İspaniyada vətəndaş müharibəsinin başlanması və onun gedişi<br>• Vətəndaş müharibəsi dövründə Almaniya və İtaliyanın İspaniyaya müdaxiləsi<br>• İspaniyada respublikaçıların məğlubiyyəti<br>• Franko diktaturasının qurulması | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2003-VII bölmə, s. 192-219. |
| | | **ARALIQ İMTAHANI** | |
| **8.** | 06.04.2026 | • SSRİ iki dünya müharibəsi arasındakı dövrdə (1917-1939-cu illər)<br>• 1917-ci il fevral inqilabı və bolşevik | Oral Sander, *Siyasi Tarih (1918-1994)*, C. II, |

| | | | |
|---|---|---|---|
| | | • çevrilişi<br>• Vətəndaş müharibəsi və onun nəticəsi<br>• Yeni iqtisadi siyasət. SSRİ-nin yaradılması.<br>• Sənayeləşdirmə və kollektivləşdirmə<br>• Totalitar inzibati idarəçilik sistemi<br>• Represiyalar | İmge Kitabevi, İstanbul, 1996, s. 25-28/36-38/58-60. |
| **9.** | 13.04.2026 | • Amerikada və Avropada iqtisadi tənəzzül və onun nəticələri.<br>• F.Ruzveltin “Yeni kurs”u | Oral Sander, *Siyasi Tarih (1918-1994)*, C. II, İmge Kitabevi, İstanbul, 1996 , s. 38-41. |
| **10.** | 20.04.2026 | • Almaniya dünya iqtisadi böhranı illərində<br>• Almaniyada faşist diktaturasının qurulması və faşistlərin iqtisadi və ideoloji siyasəti<br>• 1933- 1939-cu illərdə Almaniyanın xarici siyasəti | Qasımlı M.C, *Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945)*. II Bölmə, Bakı, 2003, s. 40-76. |
| **11.** | 27.04.2026 | • İran dünya müharibəsindən sonrakı dövrdə<br>• İranda milli-azadlıq hərəkatımn yüksəlişi<br>• Birinci dünya müharibəsi sonrası İranın xarici siyasəti<br>• 20-30-cu illərdə Rza şahın daxili və xarici siyasəti<br>• Sovet və ingilis qoşunlarının İrana yeridilməsi.<br>• Rza şahın hakimiyyətdən uzaqlaşdırılması.<br>• İranda yeni rejim və yeni dövr | Kərimzadə P., *Asiya və Afrika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2008, s. 27-60, 81-122. |
| **12.** | 04.05.2026 | • İstiqlal savaşı və nəticələri, Lozanna konfransı<br>• Atatürkün sosial-iqtisadi siyasəti Etatizm<br>• Türkiyə XX əsrin 30-cu illərdə<br>• İkinci dünya müharibəsi ərəfəsində Türkiyənin xarici siyasəti | Erik Jan Zürcher, *Modernleşen Türkiye'nin Tarihi*, Çev. Yasemin Saner, İletişim Yayınları, İstanbul, 2000 s. 194-242. |
| **13.** | 11.05.2026 | • Çin I Dünya müharibəsi və ondan sonrakı dönəmdə | Kərimzadə P., *Asiya və Afrika ölkələrinin müasir tarixi (1918-1945)*. Bakı, 2008, s. 122-144. |
| **14.** | 18.05.2026 | • Yaponiya I Dünya müharibəsi və ondan sonrakı dövrdə Mancuriyanın işğalı | Kərimzadə P., *Asiya və Afrika ölkələrinin* |

| | | | |
|---|---|---|---|
| | | | *müasir tarixi (1918-1945).*<br>Bakı, 2008,<br>s.159-173. |
| **15.** | 25.05.2026 | • İkinci Dünya müharibəsi ərəfəsində<br>• Avropada və Şərqi Asiyada vəziyyət<br>• Münhen görüşü, Molotov- Ribbentrop paktı | Oral Sander,<br>*Siyasi Tarih (1918-1994)* İmge Kitabevi, İstanbul, 1996<br>s.144-167. |
| | | **FİNAL İMTAHANI** | |

**"Müasir dünya tarixi" fənninə aid prezentasiya mövzuları**

1. I Dünya Müharibəsi- *Səbəblər, nəticələr, şərtləndirən amillər*
2. İki dünya müharibəsi arasında İngiltərə
3. İki dünya müharibəsi arasında Fransa
4. Almaniyada nasizm və Adolf Hitler
5. İki dünya müharibəsi arasında ABŞ
6. 1905 hadisələri, Bolşevik inqilabı və Sovetlərin yaranması
7. XX əsrdə dünyada baş vermis iqtisadi böhranlar
8. İranda xalq hərəkətləri və Pəhləvi hakimiyyəti
9. İtaliyada faşizm və Mussolini
10. İspaniyada vətəndaş müharibəsi
11. Türk milli mübarizəsi və Mustafa Kamal Atatürk
12. Yaponiya və onun genişləmə siyasəti
13. II Dünya Müharibəsi- *Səbəblər, nəticələr, şərtləndirən amillər*
14. İkiqütblü dünya və Soyuq müharibə dövrü
15. Koreya müharibəsi-*Səbəblər, nəticələr, şərtləndirən amillər*